BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2009*

# AZƏRBAYCAN UŞAQLARI: TARİXİ DEMOQRAFİK TƏHLİL (1991-2007-ci illər)

**L.L.HƏSƏNOVA**
***Bakı Dövlət Universiteti***
***l.letife@mail.ru***

Müstəqillik ərəfəsində və onun ilk illərində ölkəmizdə gedən sosial-iqtisadi və siyasi proseslər, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğal olunması, bir milyon insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi və s. Azərbaycan əhalisinin başqa yaş qrupları ilə bərabər uşaqlara və onların demoqrafik göstəricilərinə də ciddi təsir göstərmişdir (10, 12). Uşaqlar ölkə əhalisinin ən önəmli hissəsi və sözün həqiqi mənasında gələcəyidir. Təsadüfi deyil ki, hər bir ölkənin demoqrafik durumunu xarakterizə edən ən mühüm göstəricilər: doğum, 1 yaşadək uşaq ölümü, əhalinin təbii artımı, əhalinin demoqrafik qocalması, ailə və onun tərkibi və s. – bilavasitə uşaqlarla bağlıdır. Məhz bu baxımdan da Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2008-ci ildə imzaladığı 103 saylı sərəncamı ilə 2009-cu il ölkəmizdə "Uşaq ili" elan edilmişdir. Sərəncamda deyildiyi kimi bu "Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə qərara alınmışdır" (8, 5.3015). Əslində bu qanun uşaqlara dövlətin qayğı və diqqətini təzahür etməklə yanaşı "Uşaq hüquqları" qanunvericiliyi sahəsində gənc müstəqil respublikanın yeritdiyi dövlət siyasətinin qanuna uyğun nəticəsi və davamıdır. Belə ki, hələ 19 may 1998-ci ildə, ölkədə yüzlərlə problemin mövcudluğuna baxmayaraq, Azərbaycan Respublikası Prezidentinin 499 saylı əmri ilə "Uşaq hüquqları haqqında Azərbaycan Respublikası qanunu" qəbul edilmişdir (11). Həmin qanun Azərbaycan Respublikası Konstitusiyasına və 1989-cu ildə BMT tərəfindən qəbul edilən "Uşaq hüquqları" konvensiyasına tam uyğundur.

Uşaq hüquqları haqqında Azərbaycan Respublikası Qanununun I fəslində (maddə 1) deyilir ki, uşaqların bu qanunda nəzərdə tutulmuş hüquqları və vəzifələri 18 yaşına çatmamış hər bir şəxsə aid edilir (11).

"Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının qanununda isə (I fəsil, §02) gənclər, yaşı 16-dan 35- dək olan şəxslər götürülür (7, 857; 9, 367-372).

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2006-2008-ci illərə dair buraxdığı "Azərbaycanda uşaqlar" adlı statistik məcmuələrdə də uşaqlar 0-17 yaş həddində götürülür (3, 4, 5). Azərbaycan Respublikasının əsas qanunu – konstitusiyasında da 18 yaşına çatmış şəxs, həddi buluğa çatmış hesab edilir (6, 11). Ona görə də biz bu tədqiqatda uşaq dedikdə 0-17 yaş qrupunu əsas götürəcəyik.

Müstəqillik dövründə uşaqların demoqrafik durumunu nəzərdən keçirmək üçün aşağıdakı cədvəli nəzərdən keçirək (3, 15; 4, 15; 5, 15).

Cədvəl 1

**Uşaqların yaş qrupları üzrə sayı və faizlə miqdarı**

| Yaş qrupu | 1990 | | 1995 | | 2000 | | 2005 | | 2007 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Min nəfərlə | %-lə | Min nəfərlə | %-lə | Min nəfərlə | %-lə | Min nəfərlə | %-lə | Min nəfərlə | %-lə |
| 0-5 | 1026,0 | 14,4 | 1003,5 | 13,1 | 824,2 | 10,3 | 690,4 | 8,3 | 747,8 | 8,8 |
| 6 | 160,8 | 2,2 | 175,5 | 2,3 | 173,6 | 2,2 | 108,7 | 1,3 | 114,5 | 1,3 |
| 7 | 154,3 | 2,2 | 168,5 | 2,2 | 180,8 | 2,2 | 123,4 | 1,5 | 114,7 | 1,3 |
| 8-13 | 868,4 | 12,2 | 988,4 | 12,9 | 1116,6 | 13,9 | 1003,4 | 12,0 | 874,0 | 10,2 |
| 14 | 137,4 | 1,8 | 151,2 | 2,0 | 178,1 | 2,2 | 193,1 | 2,3 | 179,9 | 2,1 |
| 15-17 | 396,3 | 5,2 | 418,4 | 5,5 | 487,4 | 6,1 | 553,9 | 6,6 | 561,6 | 6,6 |
| 0-17 | 2742,2 | 38,5 | 2905,5 | 38,0 | 2960,7 | 36,9 | 2674,9 | 32,0 | 2592,5 | 30,4 |

Cədvəldən göründüyü kimi, 1990-cı ildə müstəqillik ərəfəsində Azərbaycanın 7131,9 min əhalisinin 2742,2 min nəfəri və ya 38,5% -ni uşaqlar (0-17 yaşlılar ) təşkil etmişdir. Müstəqillik illərində bir sıra səbəblər üzündən ölkə əhalisi içərisində uşaqların payı aşağı düşmüşdür. 1990-1995-ci illərdə, uşaqlara aid olan yaş qruplarının payı sayında (həm mütləq, həm də faizlə) ciddi dəyişiklik olmamışdır. Belə ki, 1995-ci ildə də 0-17 yaşlılar respublika əhalisinin 2905,9 minini və ya 38,0% -ni təşkil etmişdir və deməli, cəmisi 0,5% azalmışdı. Sonrakı 5 il – yəni 1995-2000-ci illər ərzində isə uşaqların sayı və faizlə miqdarı 1,1% azalmış və ümumi əhalisinin 36,9%-ni təşkil etmişdir. Sonrakı 5 ildə 2000-2005-ci illərdə isə uşaqların respublika əhalisi içərisindəki payı 4,9% azalmış və 32,0%-ə bərabər olmuşdur. 2005-2007-ci illərdə ölkə əhalisi içərisində uşaqların sayı həm mütləq, həm də ki, faizlə miqdar azalaraq 2007-ci ildə ölkə əhalisinin 30,4% təşkil etmiş və ya 2 il ərzində 1,6% azalmışdır. 2008-ci ildə bu rəqəm 29,9%-ə enmişdir. Deməli, 1990-2007-ci illər ərzində respublika əhalisi içərisində uşaqların payı 8,1% azalmışdır.

Bu cədvəldə, respublika əhalisi içərisində uşaqların xüsusi çəkisinin azalmasının, hansı yaş qrupları hesabına olması məsələsi də diqqəti cəlb edir. Belə ki, müstəqillik ərəfəsində 1990-cı ildə, uşaqların 14,4%-ni 0-5 yaşlılar təşkil etmişdir. 1995-ci ildə 0-5 yaşlılar, faiz etibarilə uşaqların 13,1%-ni əhatə etmişdir. Yəni 5 il ərzində 0-5 yaşlılar 1,3% azalmışdı. Sonrakı illərdə də uşaqlar içərisində 0-5 yaşlıların azalması davam edir. 2000-ci ildə bu yaş qrupunda olan uşaqlar əhalinin 10,3, 2005-ci ildə isə 8,8 % -ni təşkil etmişdir. Bütövlükdə 1990-2007-ci illərdə 0-5 yaşlı uşaqların sayı, respublika əhalisi içərisində 5,6% azalmışdı. Bunun əksinə isə 8-13 yaş qruplarında olan uşaqların sayı 1990-2000-ci illərdə həm mütləq, həm də faiz etibarilə artmışdır. Belə ki, onlar 1990-cı ildə respublika əhalisinin 12,2%-ni təşkil etdiyi halda, 2000-ci ildə 1,7% artaraq 13,9%-ə çatmışdır. 2000-2007-ci illərdə 8-13 yaşlılar 13,9 –dan 3,7% azalaraq 10,2%-ə enmişdi.

Əslində respublika əhalisi içərisində uşaqların payının xüsusi çəki etibarilə azalması prosesi daha tez – sovet dövrü adlandırdığımız mərhələnin sonlarında özünü qabarıq şəkildə büruzə verirdi. Belə ki, 1979-cu il siyahıya almasının nəticələrinə görə respublika əhalisinin 2619,2 minini və ya 43,44-ni uşaqlar təşkil etmişdir ki, bu

da kifayət qədər böyük göstəricidir. SSRİ-nin dağılması ərəfəsində keçirilən son 1989-cu il siyahıya alması zamanı isə əhalinin 2700,6 mini və ya başqa sözlə 38, 46%-ni 0-17 yaşlılar təşkil etmişdir, yəni on il ərzində respublika əhalisi içərisində uşaqların sayı 5%-ə qədər (4,98%)azalmışdır (1, 40).

Respublika əhalisi içərisində uşaqların payının xüsusi çəkisi etibarilə durmadan azalması çox ciddi demoqrafik proseslərlə bağlıdır. Bu hər şeydən əvvəl son illərdə doğumun və onunla bağlı təbii artımın aşağı düşməsi ilə bilavasitə bağlıdır. Ona görə də müstəqillik dövründə əhalinin təbii hərəkətini özündə əks etdirən aşağıdakı cədvəli nəzərdən keçirək (2, 27; 3, 16, 20; 4, 16, 20; 5, 16, 20).

Cədvəl 2

**Müstəqillik dövründə respublika əhalisinin təbii hərəkəti**

| İllər | Əhalinin hər 1000 nəfərinə | | | |
|---|---|---|---|---|
| | doğulanlar | Ölənlər | Təbii artım | 1 yaşa qədər uşaq ölümü |
| 1989 | 26,4 | 6,4 | 20,0 | 26,2 |
| 1990 | 25,9 | 6,1 | 19,8 | 23,0 |
| 1995 | 18,9 | 6,7 | 12,2 | 23,3 |
| 1996 | 16,9 | 6,3 | 10,6 | 19,9 |
| 1997 | 17,1 | 6,1 | 11,0 | 19,6 |
| 1998 | 15,9 | 5,9 | 10,0 | 16,6 |
| 1999 | 14,9 | 5,9 | 9,0 | 16,5 |
| 2000 | 14,8 | 5,9 | 8,9 | 16,4 |
| 2001 | 13,8 | 5,7 | 8,1 | 16,6 |
| 2002 | 13,8 | 5,8 | 8,0 | 16,7 |
| 2003 | 14,0 | 6,0 | 8,0 | 15,5 |
| 2004 | 16,1 | 6,1 | 10,0 | 14,4 |
| 2005 | 17,2 | 6,3 | 10,9 | 12,7 |
| 2006 | 17,8 | 6,2 | 11,6 | 11,9 |
| 2007 | 18,0 | 6,3 | 11,7 | 12,1 |

Cədvəldəki rəqəmlərdən göründüyü kimi SSRİ-nin dağılması ərəfəsində keçirilən sonuncu 1989-cu il siyahıya alması zamanı, əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı 26,4 nəfər təşkil etdiyi halda, 10 il ərzində yəni müstəqillik dövründə keçirilən əhalinin ilk siyahıya alındığı, 1999-cu ildə 11,5 nəfər azalaraq 14,9 nəfərə enmişdir. Sonrakı, 1999-2002-ci illərdə də bu azalma davam etmiş və yalnız 2003-cü ildən bu sahədə tədrici artım müşahidə edilir. 2007-ci ildə əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı 18,0 nəfərə çatmışdır.

Cədvəldə maraqlı maraqlı bir fakt da diqqəti cəlb edir. Bu əhalinin hər 1000 nəfərinə düşən ölüm hallarının Azərbaycanda demək olar ki, sabit qalmasıdır. Belə ki, müstəqillik ərəfəsindəki rəqəmlə - (6,4 nəfər) 2007-ci ilə dair rəqəm (6,3 nəfər) demək olar ki, eynidir. Düzdür, 1992-1994-cü illərə aid rəqəmlərin artmasının: 7,1-7,3 – şahidi oluruq, lakin bu artım həmin dövrdə gedən müharibədəki itkilərlə bağlı olmuşdur.

Doğumun aşağı düşməsi, ölümün isə demək olar ki, sabit qalması təbii artımın 1,7 dəfə azalmasına səbəb olmuşdur. Bu azalma 1989-cu ildən 2004-cü ilə qədər davam etmiş, doğumda olduğu kimi bu sahədə artım yalnız 2004-2007-ci illərdə müşahidə edilmişdir.

Demoqrafik proseslərdə ən çox diqqəti cəlb edən və narahatlıq doğuran cəhət hər 1000 nəfər diri doğulana 1 yaşa qədər uşaq ölümüdür. SSRİ-nin dağılması ərəfəsində hər 1000 diri doğulana 26,2 nəfər 1 yaşa qədər uşaq ölümü düşürdü ki, bu da kifayət qədər yüksək rəqəmdir. Növbəti on ildə bu rəqəm 9,7 nəfər azalaraq 16,5 nəfərə düşdü. Sonrakı illərdə ölkədə həyata keçirilən bir sıra sosial-iqtisadi tədbirlər nəticəsində bu göstərici daha da azalmış və 2007-ci ildə 12,1 nəfərə bərabər olmuşdur. Bütövlükdə 1989-2007-ci illərdə respublikada hər 1000 nəfərə düşən 1 yaşa qədər uşaq ölümü 2,1 dəfə azalmışdır ki, bu da kifayət qədər yaxşı göstəricidir. Bu göstərici bu sahədə heç bir problemin olmadığını söyləməyə əsas vermir. Belə ki, əgər müstəqillik ərəfəsində şəhər əhalisi içərisində əhalinin hər 1000 nəfərinə düşən 1 yaşa qədərki uşaq ölümü, kənd əhalisi içərisində olan göstəricidən 5,7, ümumi əhali içərisində olan göstəricidən 2,9 nəfər az olduğu halda, 2007-ci ildə şəhər əhalisi üzrə olan göstərici (hər 1000 nəfərə 14,7 nəfər) ümum ölkə göstəricisindən (hər 1000 nəfərə 12,1 nəfər) 2,6, kənd əhalisi üzrə olan göstəricidən isə 5,0 nəfər çox olmuşdur. Bir yaşına qədər uşaq ölümünün səbəblərinə gəldikdə isə bunlar, daha çox tənəffüs orqanlarının, perinatal dövrdə əmələ gələn hallardan, anadangəlmə anomaliyalardan və bəzi infeksion xəstəliklər üzündən baş vermişdir (2, 38).

Azərbaycan uşaqlarının demoqrafik göstəricisindən danışarkən bir məsələyə də diqqət yetirmək vacibdir. Bu son zamanlar, rəsmi qeydə alınmamış nikahlardan olan uşaqların sayının artmasıdır. Bu problem haqda əyani təsəvvür əldə etmək üçün 3 saylı cədvəli nəzərdən keçirək (1, 50).

Cədvəl №3

**Rəsmi qeydə alınmamış nikahdan doğulan uşaqların sayı**

| İllər | Rəsmi qeydə alınmamış nikahdan doğulanların sayı | | | Doğulanların ümumi sayına nisbətən % -lə | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | Şəhər | Kənd | Cəmi | Şəhər | Kənd |
| 1990 | 4800 | 3057 | 1743 | 2,6 | 3,6 | 1,8 |
| 1991 | 7137 | 4637 | 2500 | 3,8 | 5,2 | 2,5 |
| 1992 | 8002 | 4922 | 3080 | 4,4 | 5,8 | 3,2 |
| 1993 | 8692 | 5155 | 3537 | 5,0 | 6,3 | 3,8 |
| 1994 | 8263 | 5056 | 3207 | 5,2 | 6,8 | 3,8 |
| 1995 | 8375 | 4815 | 3560 | 5,8 | 7,4 | 4,5 |
| 1996 | 8830 | 4686 | 4144 | 6,8 | 8,4 | 5,6 |
| 1997 | 9664 | 5371 | 4292 | 7,3 | 9,4 | 5,7 |
| 1998 | 6126 | 3651 | 2475 | 4,9 | 6,9 | 3,5 |
| 1999 | 7567 | 4294 | 3273 | 6,4 | 8,6 | 4,9 |
| 2000 | 6282 | 3841 | 2441 | 5,4 | 7,7 | 3,6 |
| 2001 | 7318 | 4282 | 3036 | 6,6 | 8,6 | 5,0 |
| 2002 | 8421 | 4453 | 3968 | 7,6 | 9,0 | 6,5 |
| 2003 | 11882 | 5720 | 6162 | 10,5 | 11,2 | 9,9 |
| 2004 | 26669 | 10784 | 15885 | 20,3 | 18,3 | 21,9 |
| 2005 | 26050 | 11108 | 14842 | 18,4 | 17,3 | 19,3 |
| 2006 | 22029 | 10371 | 11658 | 14,8 | 14,7 | 14,9 |
| 2007 | 17873 | 8869 | 9004 | 11,8 | 12,1 | 11,4 |

Cədvəlin təhlilinə keçməmişdən əvvəl onu qeyd edək ki, 1990-cı ildən 2007-ci ilə qədər, rəsmi qeydə alınmamış nikahlardan doğulanların sayı 4800-dən - 17873

nəfərədək artmışdır. Belə ki, 1990-2007-ci illər ərzində ümumilikdə diri doğulan uşaqların sayına nisbətən, belə nikahlardan doğulan uşaqların sayı 4,5 dəfə artaraq, 2,6% dən -11,8%-ə çatmışdır. Bu müddət ərzində ən böyük artım 2004-2005-ci illərdə (26669-26050 nəfər) qeydə alınmışdır.

Belə ki, 1990-2007-ci ildə ümumilikdə diri doğulan uşaqların 1/5-dən çoxu (20,3%), rəsmi qeydə alınmamış nikahlardan doğulan uşaqlar idilər.

Maraqlıdır ki, əgər əvvəllər rəsmi qeydə alınmamış nikahdan doğulanlara şəhər yerlərində daha çox təsadüf edilirdisə, sonralar əksinə kənd yaşayış məskənlərində belə hallara daha çox rast gəlirik. 1990-cı ildə, yəni müstəqillik ərəfəsində, ümumilikdə diri doğulan uşaqların 2,6%-i rəsmi qeydə alınmamış nikahdan doğulanlar idi ki, onların da 3,6%-i şəhər, 1,8%-i isə kənd yaşayış məskənlərinin payına düşürdü.

Son 2-3 il ərzində belə nikahdan doğulan uşaqların sayında azalma müşahidə edilir ki, bunun da davamlı olması çox arzu ediləndir. Heç şübhəsiz ki, bu son zamanlar dövlətin uşaq problemləri ilə bağlı gördüyü tədbirlərlə bağlıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycanda ailələr. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2008, 382 s.
2. Azərbaycan əhalisi (statistik bülleten). Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika komitəsi, 2008, 113 s.
3. Azərbaycanda uşaqlar (statistik bülleten). Bakı: Azərbaycan Respublikasının dövlət Statistika komitəsi, 2006, 138 s.
4. Azərbaycanda uşaqlar (statistik bülleten). Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika komitəsi, 2007, 155 s.
5. Azərbaycanda uşaqlar (statistik bülleten). Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika komitəsi, 2008, 152 s.
6. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2003, 48 s.
7. «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. 2002, №5, s. 857-861.
8. 2009-cu ilin «Uşaq ili» elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 2008, №12, s. 2015-2016.
9. Həsənova L.L. Azərbaycan Gəncləri müstəqillik dövründə // Dirçəliş – XXI əsr, 2007, №114-115, s. 367-372.
10. «Küçə uşaqları» adlı seçmə statistik müayinənin nəticələrinə dair hesabat. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2008, 180 s.
11. Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının qanunu // Azərbaycan, 10 sentyabr 1998.

## ДЕТИ В АЗЕРБАЙДЖАНЕ: ИСТОРИКО-ДЕМОГРАФИЧЕСКИЙ АНАЛИЗ (1991-2007 годы)

**Л.Л.ГАСАНОВА**

**РЕЗЮМЕ**

Указом Президиума Азербайджанской Республики от 22 декабря 2008 года за №103 2009 год объявлен «Годом Ребенка». На основе статистических сборников Государственного Статистического Комитета Азербайджанской Республики в статье дана динамика численности детей и их удельный вес в составе населения республики. Показано влияние демографических факторов на рост количества детей: рождаемость, смертность, естественный прирост, смертность детей до 1 года и рождаемость от незарегистрированных браков.

## AZERBAIJAN CHILDREN: ANALYSIS OF HISTORIAN DEMOGRAPHIC (in 1991-2007 years)

**L.L.HASANOVA**

**SUMMARY**

According to the sighed on December 22, 2008 order of Azerbaijan Republic Prezident N103, 2009 year is announced “Children year” in our country.

In the article registered information in State Statistical Committee of the Republic of Azerbaijan statistic complete works in analysed the dynamic of children number, their specific wight in population demographic factors, that have an impact it; like birth, death, increase of population, death of children until one, the children is borned by illegal marriage contract etc. tasks.